**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 89

**Bakı şəhəri** „10" sentyabr 2014-cü il

**"Rezidenturaya qəbul olunmuş həkimlərin hazırlığının təşkil edilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 2.4-cü və 5.1-ci bəndlərinə uyğun olaraq rezidenturada yüksəkixtisaslı həkim-mütəxəssislərin hazırlığının təşkil edilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. 2014/2015-ci tədris ili üçün rezidenturaya qəbul olunmuş rezidentlərin hazırlığına 01.10.2014-cü il tarixdən başlanılsın.

2. "Rezidenturada həkim-mütəxəssis hazırlığı haqqında müqavilə"nin forması təsdiq edilsin (əlavə olunur).

3. Rezidenturada həkim-mütəxəssis hazırlığını aparan müəssisələrin rəhbərlərinə tapşırılsın:

3.1. əmrə əlavə olunan siyahı üzrə 2014/2015-ci tədris ili üçün rezidenturaya qəbul olunmuş rezidentlərin hazırlığı təmin edilsin;

3.2. rezidentlərin müvafiq ixtisas üzrə zəruri olan nəzəri biliklərə və peşə vərdişlərinə yiyələnməsini təmin etmək üçün kuratorlar təyin edilsin;

3.3. rəhbərlik etdikləri müəssisələrdə rezidentlərin hazırlığının yüksək səviyyədə həyata keçirilməsinə mütəmadi nəzarət həyata keçirilsin.

4. Əmrin icrasına nəzarət Aparatın rəhbəri Z.Mustafayevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

| Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | **Rezidenturada həkim-mütəxəssis hazırlığı haqqında** <br> **MÜQAVİLƏ** | *Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 10.09.2014-cü il tarixli, 89 nömrəli əmri ilə təsdiq edilmişdir* <br> № ______ <br> **Bakı şəhəri, "__" ______ 2014** |
|---|---|---|

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi,** səlahiyyətli nümayəndəsi **Kadrlar, elm və təhsil şöbəsinin müdiri Kəmalə Nurəddin qızı Mehdiyeva** şəxsində bir tərəfdən və ________________________________________________ bundan sonra **"Rezident"** digər tərəfdən aşağıda göstərilənlər barədə bu müqaviləni bağladılar:

**Əsas anlayışlar:**

| | |
|---|---|
| **Nazirlik:** | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi. |
| **Rezident:** | Rezidenturada təhsil alan şəxs. Rezidentin rekvizitləri 7-ci maddədə göstərilmişdir. |
| **Rezidentura:** | Tibb ixtisasları üzrə baza ali tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığının forması. |
| **Kurator:** | Rezidentin bu Müqavilədə göstərilən ixtisas üzrə zəruri olan nəzəri biliklərə və peşə vərdişlərinə yiyələnməsini təmin edən mütəxəssis. |
| **Klinik baza:** | Müasir maddi-texniki bazası olan, təşkilati-metodiki, tədris, müalicə-diaqnostika və elmi tədqiqat işlərinin müasir metodları əsasında rezidentlərin hazırlığını həyata keçirən səhiyyə müəssisəsi. |
| **Tərəflər:** | Nazirlik və Rezident birlikdə |
| **Müqavilə:** | Mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında Tərəflərin bağladığı bu yazılı razılaşma. |

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. Bu müqavilə Azərbaycan Respublikasının ərazisində əhaliyə ixtisaslı tibbi yardımın təmin edilməsi məqsədi ilə klinik bazalarında həkim-mütəxəssislərin hazırlanması və onların müvafiq iş yerləri ilə təmin edilməsi məqsədi ilə bağlanılır.

1.2. Bu müqavilə üzrə rezidenturada mütəxəssis hazırlığı dövlət sifarişi əsasında həyata keçirilir.

1.3. Həkim-mütəxəssis hazırlığı aparılan ixtisasın adı: ________________________________ .

1.4. İxtisas üzrə təhsil müddəti: ____(__________) il.

## 2. REZİDENTİN BƏYANATLARI

2.1. Rezident bu Müqaviləni imzalamaqla təsdiq və bəyan edir ki:

2.1.1. Bu Müqavilənin icrası ilə bağlı olan bütün şərtləri, tələbləri və buna aid bütün məlumatları öyrəndikdən sonra bu müqaviləni imzalayır;

2.1.2. Bu Müqavilə üzrə üzərinə götürdüyü icrası məcburi olan vəzifələri vicdanla və Müqavilədə nəzərdə tutulmuş qaydada tam olaraq icra edəcəkdir;

2.1.3. Bu Müqavilədə göstərilən həkim-mütəxəssis ixtisası üzrə qanunvericilikdə nəzərdə tutulmuş təhsil müddəti ilə tanışdır və bu müddət ərzində rezidentura təhsili almasına şəxsi razılıq verir;

2.1.4. Nazirlik tərəfindən müəyyən ediləcək Klinik baza(lar)da rezidentura təhsili almağa heç bir etirazı yoxdur.



*Nazirlik*__________ *Rezident*__________

## 3. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**3.1. Nazirliyin vəzifələri:**

3.1.1. yuxarıda qeyd edilmiş ixtisas üzrə Rezidenti həkim-mütəxəssis kimi hazırlamaq;

3.1.2. Rezidenti hazırlığı uğurla başa vurmasından sonra onu həkim-mütəxəssis kimi işlə təmin etmək;

3.1.3. Rezidenti qanunvericiliklə nəzərdə tutulmuş təminatları barədə məlumatlandırmaq və öz üzərinə düşən həcm və formada Rezidentə təminatlarının əldə etməsində müvafiq köməklik etmək.

**3.2. Nazirliyin hüquqları:**

3.2.1. Rezidentdən aşağıdakıları tələb etmək:

- Bu Müqavilə və qanunvericiliklə icrası məcburi olan tələb və vəzifələri vaxtında və lazımi qaydada icra olunmasını, onların pozulmasına yol verilməməsini;
- Hazırlıq müddəti ərzində davamiyyəti, tapşırıqların vaxtında yerinə yetirilməsini, işə yiyələnməsi üçün səylər göstərməsini və s.

3.2.2. Qanunvericiliklə nəzərdə tutulmuş hallarda Rezidenti Rezidenturadan xaric etmək.

**3.3. Rezidentin vəzifələri:**

3.3.1. Təhsil müddətində ixtisasına mükəmməl yiyələnmək, nəzəri təlimlərdə, həkim hazırlığı, ixtisas və ixtisaslaşma fənlərinin mühazirələrində, məşğələlərdə, seminar və məsləhət saatlarında davamlı iştirak etmək;

3.3.2. Kuratorunun rəhbərliyi və nəzarəti altında müalicə-profilaktika işlərini aparmaq və belə işlərin aparılmasında iştirak etmək;

3.3.3. Kuratorun tövsiyə və tapşırıqlarını yerinə yetirmək;

3.3.4. İxtisası üzrə təhsil proqramına və dövlət təhsil standartlarına hərfən əməl etmək;

3.3.5. Fərdi iş planını vaxtında yerinə yetirmək;

3.3.6. Fərdi iş planının, kuratorun tövsiyə və tapşırıqlarının yerinə yetirilməsini əks etdirən gündəliklər aparmaq;

3.3.7. Təhsil aldığı müəssisənin elmi(tibbi) şurası qarşısında müvafiq hesabatlar vermək;

3.3.8. Xüsusi təyin edilən müddətlərdə dövri və yekun attestasiyalardan keçmək;

3.3.9. Yekun attestasiyadan keçə bilmədikdə növbəti illər üçün nəzərdə tutulmuş yekun attestasiyalardan yenidən keçmək;

3.3.10. Hazırlıq keçdiyi təhsil müəssisəsinin və Klinik bazanın müəssisədaxili intizam qaydalarına riayət etmək;

3.3.11. Müvafiq təhsil proqramı ilə tənzimlənən iş rejimlərinə və növbətçilik qaydalarına əməl etmək;

3.3.12. Rezidenturanı bitirdikdən sonra əmək fəaliyyətini 3 (üç) il müddətində Nazirliyin göndərişinə əsasən səhiyyə müəssisəsində davam etdirmək;

3.3.13. Həkim sirrinə əməl etmək;

3.3.14. Qanunvericililə müəyyən edilən digər vəzifələri icra etmək.

**3.4. Rezidentin hüquqları:**

3.4.1. Rezidenturanın keçirilməsi ilə bağlı tədris planı və təhsil proqramları ilə tanış olmaq;
3.4.2. Rezidentura ilə bağlı Kuratora şifahi və ya yazılı, Klinik bazanın rəhbərliyinə isə yazılı qaydada müraciətlər etmək;
3.4.3. Klinik bazanın daxili intizam qaydaları ilə tanış olmaq;
3.4.4. Klinik baza ilə əmək müqaviləsi bağlamaq;
3.4.5. Nazirliyin göndərişinə əsasən səhiyyə müəssisəsində 3 il işlədikdən sonra həmin müəssisədə əmək fəaliyyətini davam etdirmək;
3.4.6. Qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlarından istifadə etmək.

## 4. MÜLKİYYƏT MÜNASİBƏTLƏRİ

4.1. Rezident Klinik baza tərəfindən ona verilmiş əmlakdan təyinatına və müəssisənin daxili qaydalarına uyğun istifadəni, onun salamatlığını, habelə təsadüfən məhv olması və pisləşməsi riskinin aradan qaldırılmasını təmin edir, ona etibar edilmiş əmlak(lar)ın dəqiq uçotunu aparır, əmlakın inventarlaşdırılması tələb olunduqda əmlakın inventarlaşdırılmasında iştirak edir, əmlakın vəziyyəti barədə Klinik bazanın müvafiq vəzifəli şəxsinə tələb olunduqda hesabat və zərər vurulduqda yazılı izahat verir, habelə vurulmuş zərərin əvəzini tam həcmdə ödəyir.

4.2. Rezident bu Müqavilənin icrasından irəli gələn öhdəliklərin icrası ilə bağlı ona məlum ola biləcək konfidensial məlumatların, yəni Nazirliyin və ya Klinik bazanın yazılı razılığı olmadan açıqlanması Nazirlik və Klinik bazanın, müqavilə üzrə tərəfdaşlarının qanuni maraqlarına zərər vura bilən elektron və ya kağız formada məlumatların, məlumatlar "Konfidensialdır" şifri ilə ifadə edilib-edilməməsindən asılı olmayaraq qorunmasına cavabdehdir. Rezident bu məlumatların yayılmasına görə qanunvericilikdə nəzərdə tutulan məsuliyyəti daşıyır.

## 5. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ LƏĞV EDİLMƏSİ, MƏSULİYYƏT

5.1. Bu Müqavilə Tərəflərin bu Müqaviləni imzaladıqları tarixdən qüvvəyə minir və Tərəflər öhdəliklərini tam olaraq icra edənə qədər qüvvədədir.

5.2. Rezident bu Müqavilə üzrə öhdəliklərini vaxtında və lazımi qaydada icra etmədikdə Nazirlik bu Müqaviləni vaxtından əvvəl birtərəfli qaydada ləğv edə bilər. Rezident bu Müqaviləni öz təşəbbüsü ilə, yəni Nazirliyə rəsmi olaraq yazılı müraciət edərək ləğv edə bilər. Bu zaman Müqavilənin ləğv ediləcəyi tarix Rezidentin müraciətinə Nazirlik tərəfindən rəsmi münasibətin bildiriləcəyi tarix hesab edilir ki, bu tarixə qədər Rezident bu Müqavilə üzrə öhdəliklərinin icrasına davam etməlidir.

5.3. Müqavilənin ləğv edilməsinin digər əsasları:

5.3.1. Rezidentin əmək qabiliyyətini fasiləsiz olaraq 6(altı) aydan çox müddətə tam itirməsi;

5.3.2. Rezidentin məhkəmə qaydasında məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi;

5.3.3. Rezidentin attestasiyadan təkrarən keçməməsi;

5.3.4. Rezidentin həkim andını və sirrini pozması.

5.4. Bu müqaviləyə 5.2-ci, 5.3.3-cü və 5.3.4-cü maddələrdə nəzərdə tutulmuş hallar və əsaslardan biri ilə (və ya bir neçəsi ilə) xitam verilərsə, Rezident Müqavilənin ləğv ediləcəyi tarixə qədər bu Müqavilənin icrası üzrə rezidentin hazırlığına çəkilən bütün xərcləri Nazirliyin müəyyən edəcəyi müddət və formada olmaqla Nazirliyə ödəməlidir.

5.5. Tərəflərin bu Müqavilə üzrə digər məsuliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada tənzimlənir.

## 6. ƏLAVƏ ŞƏRTLƏR

6.1. Bu müqavilənin 3.3.12-ci bəndi ilə müəyyən edilən müddətə qismən ödənişli sosial məzuniyyətə və müddətli həqiqi hərbi xidmətdə olma müddətləri aid edilmir.

6.2. Rezident bu müqavilənin 3.3.12-ci bəndi ilə müəyyən edilən müddəti tam başa vurmadıqda Nazirliyin tabeliyində olan digər müəssisələrə yalnız Nazirliyin göndərişi əsasında işə qəbul oluna bilər.

6.2. Bu müqavlіənin icrası ilə əlaqədar tərəflər arasında yaranmış mübahisələr qarşılıqlı razılıqla və ya Azərbaycan Respublikasının məhkəmələri vasitəsilə həll ediləcəkdir.

6.3. Bu müqavilənin qüvvədə olduğu müddətdə Rezidentin qeydiyyat ünvanında, fərdi identifikasiya məlumatlarında və digər rekvizitlərində dəyişikliklər baş verərsə, bu barədə Nazirliyi 3 (üç) iş günü müddətində yazılı formada xəbərdar etməlidir.

6.4. Bu müqavilə Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib edilmişdir, nüsxələr eyni hüquqi qüvvəyə malikdir, Tərəflərin imzaları və Nazirliyin möhürü ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir və nüsxələrdən biri Nazirlikdə, digəri isə Rezidentdə saxlanılır.

## 7. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ TƏSDİQ QEYDİ

| Nazirlik: | Rezident: |
| --- | --- |
| **AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ** | ____________________ |
| Ünvan: Bakı ş., M.Mirqasımov k., 1A | Ünvan: ________________ |
| VÖEN: 1400049171 | ____________________ |
| Müqaviləni imzalayan şəxsin vəzifəsi: | Ş/V: AZE№ ______________ |
| Kadrlar, elm və təhsil şöbəsinin müdiri | Ş/V verən orqanın adı: ________ |
| Müqaviləni imzalayan şəxsin S.A.A: | Verilmə tarixi: ____________ |
| Kəmalə Nurəddin qızı Mehdiyevaya | Əlaqə telefonu: ____________ |
| ____________________<br>(imza/möhür) | ____________________<br>(imza, şəxsi xətti ilə soyadı, adı və ata adı) |